# MƏHBUS HƏYATI

**Redaksiya heyəti**

**Ə. Musayev**
**M. Qarayev**
**A. Salehli**
**F. Allahverdiyev**

**Kompüter tərtibatı**

**E. Rüstəmov**

Uca Allah buyurur:

**"Allahdan bağışlanma dilə! Həqiqətən, Allah bağışlayandır, rəhmlidir!"**

*(Quran, "ən-Nisa" surəsi, 106)*

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

*Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

# Müqəddimə

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, onu azdıran, kimi də azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, O, təkdir, şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və rəsuludur.

Bu kitab, hər bir məhbusa təsəlli verən, onun kədərini aradan qaldıran, onu yaxşı işlər görməyə və pis işlərdən çəkinməyə təşviq edən, beləliklə də, yenidən öz gələcəyini qurmaq üçün onda inam yaradan bir əsərdir.

Uca Allah hər bir insanı gözəl biçimdə yaradır. Sonradan şeytan insanı yoldan çıxardıb, günah iş görməyə sövq edir və onun həyatını puç etmək istəyir. Mərhəmətli Allah isə hər zaman Öz bəndəsinin tövbəsini qəbul edir və onun günahlarını bağışlayır.

Bu xüsusda Peyğəmbər ﷺ demişdir: «**Bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, Adəm övladları ölənədək mən onları haqq yolundan azdıracağam!"– demiş, Rəbbi də ona belə cavab vermişdir: "İzzətimə və cəlalıma and olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!"**»[1]

---

[1] Musnəd İmam Əhməd, 3/41; Səhih əl-Cami, 499.

Əzəmətli və qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizim bu əməlimizə bərəkət versin, onu məhz Allahın rizasını qazanmaq xatirinə edilən əməllərdən etsin, bunun sayəsində bizə savab və mükafat bəxş etsin, üstəlik, bu kitabı, Qiyamətədək oxunacaq kitablardan etsin, onu oxuyub, içində yazılanlara əməl edən və onu hər tərəfə yayan kimsələr üçün faydalı etsin. Həqiqətən də, bu lütf Allahdandır və O, buna qadirdir.

# Qayəmiz

Bu kitabı yazmaqda məqsədimiz həbsxanalarda qəm-qüssə içində yaşayan və həyatdan ümidini üzmüş insanların kədərini aradan qaldırıb, itirmiş olduqları ümidlərini onlara qaytarıb, hər şeyi yenidən başlamaq gücünü, əhval-ruhiyyəsini onlara bəxş etməkdir. Böyük Gücə söykənən iradənin hələ nələrə qadir olduğunu bilməyən nə qədər insanımız var. Bizim bu kiçik əməlimizin kiməsə azacıq da olsa xeyri dəyəcəyi ümidi ilə Allaha sonsuz şükürlər edirik!

Hədislərin birində Peyğəmbər ﷺ demişdir: **"Kim xeyirxah bir iş görməyə yol göstərərsə, ona həmin əməli edənin savabının misli *qədər savab* yazılar!"**[1]

Ümid edirik ki, bu kitabda yazılan ibrətli kəlamlar oxucumuza mənəvi dəstək verəcək,

[1] Səhih Muslim, 1893.

Allahın və Onun rəsulunun bu tövsiyələri onun gələcək həyatında öz izini qoyacaqdır.

Müdrik adamların gözəl bir sözü var: “İbrət naqis başlanğıcda yox, kamil sonluqdadır.” Elə isə, insan keçmişini düşünüb əsla ümidsizliyə qapılmamalı, əksinə, gələcəyini qurmaq üçün yaxşı işlər görməyə can atmalıdır.

Allah elə bir düzən müəyyən etmiş ki, heç bir zaman gec deyil, sadəcə – məhz Allah tələb etdiyi şəkildə başlamaqla itirdiyin hər şeyi – ən əsası isə ümid və qəlb rahatlığını yenidən əldə edirsən. Belə edəcəyin təqdirdə Allah səni həm bu dünyada, həm də axirətdə səadətə qovuşdurar. Bu xüsusda Quranda belə buyurulur: **“Allah aranızdan yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır.”**[1]

[1] “əl-Əhzab” surəsi, 29.

Digər ayədə isə deyilir: **"Allah iman gətirib yaxşı işlər görənləri** *ağacları və qəsrləri* **altından çaylar axan cənnətlərə daxil edər."**[1]

Başqa bir ayədə də belə deyilir: **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq."**[2]

---

[1] "Muhəmməd" surəsi, 12.
[2] "ən-Nəhl" surəsi, 97.

# Ümidinizi üzməyin!

Möhtərəm oxucu! Məlumun olsun ki, hər birimiz həyatımız boyu xətalar edirik, çünki biz insanıq. İnsan isə xilqətcə xəta etməyə məhkumdur. Bu xüsusda varid olmuş hədisdə belə deyilir: "Adəm övladlarının hamısı xəta edir. Xəta edənlərin ən xeyirlisi isə tövbə edənlərdir."[1]

Bu hədisdən aydın başa düşülür ki, Allahın tövbə qapısı günah etmiş hər bir bəndəsinin üzünə açıqdır. Elə isə, etdiyimiz xətalardan dolayı, Allahın mərhəmətindən ümidimizi üzməməli, əksinə, daim Onun bu ayəsini xatırlamalıyıq: ***"Qullarıma Mənim bu sözümü* de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları**

[1] Sunən ət-Tirmizi, 2499; Səhih ət-Tərğib vət-Tərhib, 3139.

**bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"**[1]

Digər ayədə isə belə buyurulur: **"Kim pis bir iş görsə və ya özünə zülm etsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan və rəhmli olduğunu görər."**[2]

Qüdsi hədisdə uca Allah belə buyurur: "Ey qullarım, siz gecə-gündüz günah işlər görürsünüz. Mən də bütün günahları bağışlayıram. Elə isə Məndən bağışlanma diləyin, sizi bağışlayım!"[3]

Digər hədisdə də uca Allah belə buyurur: "Ey Adəm övladı! Nə qədər ki, Mənə dua edirsən və Mənim *mərhəmətimə* ümid bağlayırsan, Mən sənin günahlarının hamısını bağışlayır, *günahın çoxluğuna və böyüklüyünə* əhəmiyyət vermirəm. Ey Adəm övladı! Əgər

---

[1] "əz-Zumər" surəsi, 53.

[2] "ən-Nisa" surəsi, 110.

[3] Səhih Muslim, 2577.

sənin günahların *yerdən* göyədək olsa, sonra da Məndən bağışlanma diləsən, Mən səni bağışlayar, *günahın çoxluğuna və böyüklüyünə* əhəmiyyət vermərəm. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən və heç bir şeyi Mənə şərik qoşmadan, Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm."[1]

Yuxarıda qeyd edilən ayə və hədislərdən aydın başa düşülür ki, Rəhmli və Mərhəmətli Allah, səmimi qəlbdən tövbə edən hər bir bəndəsini bağışlayır. Hətta ayələrin birində deyilir ki, Allah tövbə edənləri və pak olanları sevir.[2]

Elə isə, tövbə etməyə, Allahın mərhəmətinə qovuşmağa və Onun sevdiyi bəndələrdən olmağa can atmalıyıq!

---

[1] Sunən ət-Tirmizi, 2/270; Silsilə əl-Əhadis əs-Səhihə, 127.

[2] "əl-Bəqərə" surəsi, 222.

Allahdan bağışlanma diləmək həm də Onun hökmlərinə boyun əymək deməkdir. Onun hökmünə boyun əyən insan bu əməlinin qarşılıqsız qalacağına əsla şübhə etməsin.

Yuxarıdakı ayə və hədislərdən də görürük ki, Allah bunun mükafatını mütləq verəcəkdir. Elə isə, niyə ümidsiz olaq, niyə "mənim üçün hər şey bitdi" deyə düşünüb, əlimizi hər şeydən üzək ki?!

Digər tərəfdən də axı həyat təkcə bu dünya ilə bitmir. Bura ilə bitməyən həyatda nəyi isə itirməyimiz, keçmişdə buraxdığımız xətalar nədən hər şeyin sonu olsun ki?! Sadəcə, "Allah" deyib, yenidən, daha yaxşı şəkildə başlamaq lazımdır. Bu başlanğıc hər şeyi dəyişəcək. İnanın dəyişəcək!

# Allahdan bağışlanma diləmək peyğəmbərlərin عليهم السلام yoludur

Bir daha xatırladaq ki, hər bir insan xəta edə bilər və xəta edənlərin ən xeyirlisi, etdiyi xətalara görə Allahdan bağışlanma diləyənlərdir.

İnsanın xəta etməsi, heç də onun dəyərsiz olduğuna dəlalət etmir, əksinə, bəşəriyyətin ən dəyərli insanları sayılan peyğəmbərlər belə xəta edib və etdikləri xətaya görə Allahdan bağışlanma diləyiblər:

– Bir zaman Adəm عليه السلام və Həvva عليها السلام Allahdan bağışlanma diləyib demişlər: **"Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq."**[1]

– Nuh عليه السلام da belə dua etmişdir: **"Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin**

---

[1] "əl-Əraf" surəsi, 23.

**kimi daxil olanları və *bütün* mömin kişi və qadınları bağışla!"**[1]

– İbrahim ﵇ də belə dua etmişdir: **"Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!"**[2]

– Musa ﵇ da belə dua etmişdir: **"Ey Rəbbim! Məni və qardaşım *Harunu* bağışla, bizi Öz mərhəmətinə qovuşdur. Sən rəhm edənlərin ən rəhmlisisən!"**[3]

**– "Davud Bizim onu sınağa çəkdiyimizi yəqinləşdirdi, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi."**[4]

– Suleyman ﵇ da belə dua etmişdir: **"Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən Bəxşedənsən."**[5]

---

[1] "Nuh" surəsi, 28.

[2] "İbrahim" surəsi, 41.

[3] "əl-Əraf" surəsi, 151.

[4] "Sad" surəsi, 24.

[5] "Sad" surəsi, 35.

– Peyğəmbərimiz Muhəmmədə ﷺ də Rəbbi belə buyurmuşdur: **“Həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!”**[1]

Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “Ey insanlar, Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Həqiqətən də, mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm!”[2]

Əbu Hureyrə رضي الله عنه demişdir: “Mən Rəsulullahdan ﷺ daha çox: “Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!”– deyən bir kimsə görməmişəm.”[3]

Bu ayə və hədislərdən aydın başa düşülür ki, etdiyi xətalara görə Allahdan bağışlanma diləmək təvazökarlıq, bunun əksi sayılan, xətasız olduğunu və ya xəta etməyəcəyini düşünmək isə təkəbbürlük əlamətidir:

---

[1] “ən-Nəsr” surəsi, 3.

[2] Musnəd İmam Əhməd, 4/260-261.

[3] Səhih İbn Hibban, 928.

**"*Allah* təkəbbürlük edənləri sevməz."**[1]

Bir məsələni da əsla unutmamalıyıq: **biz bu həyatda sınağa çəkiləcəyik!**

Qarşılaşdığımız hər bir hal sınaqdır: varlı olmaq da, kasıb olmaq da, sağlam olmaq da, xəstə olmaq da, azadlıqda olmaq da, məhbus olmaq da – hər bir hal sınaqdır. İnsan sınaqda olduğunu düşündükcə, toparlanıb möhkəm olması, Allahın yoluna daha sıx bağlanması, bu sınaqlardan üzü ağ çıxması üçün ən düzgün yoldur. Allah kimləri sınağa çəkmədi ki, bir düşünək.

---

[1] "ən-Nəhl" surəsi, 23.

# Yusuf peyğəmbərin عليه السلام sınağa çəkilməsi

Uca Allah dünya həyatında kimisinə mal-dövlət, vəzifə, oğul-uşaq verməklə, kimisini də kasıblıq, xəstəlik, sonsuzluq, məhbusluq və s. ilə sınağa çəkir.

Allahın kiməsə bol nemətlər verməsi onun Allah yanında dəyərli olmasına dəlalət edə bilməz. Eləcə də, Allahın müsibətlə sınağa çəkdiyi kimsə də Allah yanında dəyərsiz sayıla bilməz. Belə ki, Allah səltənət və mal-dövlət verdiyi Fironu alçaldıb əbədi Cəhənnəm əhlindən etmiş, sevimli peyğəmbəri Yusufu عليه السلام isə məhbusluq həyatı ilə sınağa çəkmişdir. Yusuf عليه السلام bu sınaq qarşısında səbir etmiş və Allaha olan şükrünü daha da artırmışdır. Allahın peyğəmbəri gözəl başa düşürdü ki, bu, sadəcə dünya həyatında olan bir imtahandır və Allah heç bir bəndəsini daşıya bilməyəcəyi bir yüklə yükləməz. Bu

səbrin və şükrün mükafatı olaraq, Allah onu bu sıxıntıdan qurtardı və onu şərəfli məqama yüksəltdi.

Qurandan Yusufun ﷺ hekayəsini oxuduqda görürük ki, bu möhtərəm peyğəmbər zindanda qaldığı uzun illər boyu daim Rəbbinə ibadət etmiş və zindan yoldaşlarını da bu şərəfli yola dəvət etmişdir.

Quranda Yusufun ﷺ onlara belə dedyi xəbər verilir: **"Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Tək olan,** ***hər şeyə*** **Qalib gələn Allah? Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın qoyduğunuz adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O, sizə yalnız Ona ibadət etmənizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu** ***bunu*** **bilmir."**[1]

[1] "Yusuf" surəsi, 39-40.

Bundan aydın başa düşülür ki, mömin insan harada olmasından asılı olmayaraq Allah qarşısında olan öhdəliklərini daim yerinə yetirməli, qədərinə yazılmış imtahana görə Allaha qarşı üsyan etməməlidir. Əksinə, başına gəlmiş müsibətə səbir etdiyinə görə Allahın onu mükafatlandıracağına əmin olmalıdır. Bu xüsusda uca Allah buyurur: **"Onlar səbir etdiklərinə görə *Cənnətdə olan* yüksək məqamla mükafatlandırılacaq, orada xeyir-dua ilə, salamla qarşılanacaqlar. Onlar orada əbədi qalacaqlar. Ora nə gözəl məskən, necə də gözəl iqamətgahdır!"**[1]

Digər ayədə isə belə buyurur: **"Bu gün Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Şübhəsiz ki, uğur qazananlar da onlardır!"**[2]

---

[1] "əl-Furqan" surəsi, 75-76.

[2] "əl-Muminun" surəsi, 111.

Başına müsibət gəlmiş mömin adam yəqin bilməlidir ki, bu sınaqlar müvəqqətidir. Quranda da deyildiyi kimi: **“Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir.”**[1]

Həmçinin, Peyğəmbər ﷺ demişdir: “Bil ki, sənin qədərinə yazılmamış bir şey, sənin başına gələ bilməz, həmçinin, qədərinə yazılmış bir şey də səndən yan keçməz. Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc, çətinliyin ardından da asanlıq gəlir.”[2]

---

[1] “əş-Şərh” surəsi, 5.

[2] Musnəd İmam Əhməd, 1/307; Təbərani, əl-Mocəm əl-Kəbir, 11243.

# Sıxıntı zamanında dua etməyin önəmi

Yuxarıda da qeyd etdik ki, hər bir insan həyatı boyu fərqli sınaqlarla üzləşir və sıxıntı anında düşdüyü vəziyyətdən qurtulmaq üçün müxtəlif yollar axtarır. Kimisi ümidsizliyə qapanaraq həyatdan əlini üzür, kimisi bu sıxıntıdan qurtulmaq üçün öz gücünə arxayın olur, kimisi müxtəlif vasitələr axtarır, kimisi də dərhal intiqam almağa çalışır. Bu da, insana xas olan təbii xislətdir və insan belə hallarda öz düşüncəsinə uyğun qərar verir.

Elə isə, gəlin baxaq, görək Allahın yaratdıqları içində üstün etdiyi, ən ali məqamla şərəfləndirdiyi peyğəmbərləri sıxıntı ilə üzləşdikdə nə etmişlər. Onu da qeyd edək ki, ən çox sınağa çəkilmiş insanlar peyğəmbərlər olmuşlar. Bu xüsusda Uca Allah belə buyurur:

**“Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər.”**[1]

– Peyğəmbərlərin atası sayılan İbrahim peyğəmbəri ﵇ müşriklər oda atdıqda, o: “Allah mənə yetər. O, nə gözəl Qoruyandır!” deyə dua etmiş,[2] Allah da onu qorumuşdur.[3]

– Yunus peyğəmbəri ﵇ Allah sınağa çəkmiş, dənizdə böyük bir balıq onu udduqdan sonra, o, balığın qarnında ikən belə dua etmişdir: **“Səndən başqa məbud yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam!”** Allah da onun duasını qəbul etmiş və onu qəm-qüssədən qurtarmışdır.[4]

– Əyyub peyğəmbərin ﵇ Allah əvvəlcə mal-dövlətini, sonra övladlarını əlindən almış, sonra da onu xəstəliyə düçar etmişdir. Əyyub

---

[1] “əl-Bəqərə” surəsi, 286.
[2] Səhih əl-Buxari, 4563.
[3] “əl-Ənbiya” surəsi, 51-73.
[4] “əl-Ənbiya” surəsi, 87-88; “əs-Saffat” surəsi, 139-148.

peyğəmbər عليه السلام isə bu sınaqlara səbir etmiş və belə dua etmişdir: **“Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!”** Allah da onun duasını qəbul etmiş və onu düçar olduğu müsibətlərdən qurtarmışdır.[1]

– Misirin zadəgan qadınları Yusuf peyğəmbərə عليه السلام hiylə qurduqları zaman,[2] o, bu müsibətdən qurtulmaq üçün dua edib demişdir: **“Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyl edər və cahillərdən olaram. Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi.”**[3]

– Bir zamanlar zalım Firon öz səltənətində dünyaya gələn oğlan uşaqlarının hamısının qətlinə fərman verdikdə, yeni dünyaya gəlmiş

---

[1] “əl-Ənbiya” surəsi, 83-84.

[2] “Yusuf” surəsi, 22-32.

[3] “Yusuf” surəsi, 33-34.

Musa peyğəmbərin ﷺ anası körpəsini qorumaq üçün qaçıb Nil çayının sahilinə gəlir. Əsgərlərin ona yetişəcəyini və çayı keçməyin mümkün olmadığını gördükdə, artıq çıxış yolu olmadığını düşünüb, Allahdan məděd umur. Elə bu vaxt Allah ona belə çıxış yolu göstərir: **"Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu çaya at. Qorxma və kədərlənmə. Çünki Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik."**[1] Anası Musanı ﷺ Allahın ona buyurduğu kimi beşiyə qoyub, içərisi timsahlarla dolu, sərt axan Nil çayına atır. Allah onu bü təhlükələrdən qoruyur, sonra da ona peyğəmbərlik bəxş edir.[2]

İllər sonra Firon öz ordusu ilə Musa peyğəmbəri ﷺ və onun tərəfdaşlarını təqib etdikdə, o, yalnız Allaha ümid bəsləyərək:

---

[1] "əl-Qəsəs" surəsi, 7.
[2] "əl-Qəsəs" surəsi, 3-13.

**“Rəbbim mənimlədir. O, mənə doğru yol göstərəcək!”**[1]– dedi, Allah da onun bu istəyini qəbul edib, möminləri xilas edir, Firon və onun tərəfdarlarını isə dənizdə batırır.

– Bir zaman İsrail oğullarından olan bir dəstə Məryəmi عليها السلام zinada ittiham edərək, onu təhqir edirlər. Bu zülm qarşısında Məryəm عليها السلام yalnız Allaha təvəkkül edir, Allah da möcüzə göstərərək, onu bu sıxıntıdan qurtarır. Körpə dil açıb deyir: **“Həqiqətən də, mən Allahın quluyam! O, mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də *məni* anama qarşı qayğıkeş *etdi*; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!”**[2]

---

[1] “əş-Şuəra” surəsi, 62.

[2] “Məryəm” surəsi, 30-33.

– Muhəmməd Peyğəmbərə ﷺ gəlincə, onun həyatındakı ən ağır gün Taifə getdiyi gün olmuşdur. Orada o, dayıları ilə görüşüb, onlara dərdini anladır və onlardan dəstək istəyir. Lakin onlar ona istehza edərək: “Allah səndən başqasını peyğəmbər seçə bilməzdi?! Nə üçün zəngin və zadəgan birisinə yox, məhz sənin kimi savadsız çobana peyğəmbərlik verib?!”– dedilər və üstəlik, yardım etməyəcəklərini bildirirlər.

Peyğəmbər ﷺ on gün Taifdə qaldı və evbəev gəzib, insanları İslama dəvət etdi, lakin onlar onun dəvətini rədd etdilər, özünü də: “Əgər Taifi tərk etməsən, səni öldürəcəyik”– deyə hədələdilər. Sonra da, uşaqlara tapşırdılar ki, onu daşa basıb Taifdən qovsunlar. Nəinki uşaqlar, hətta qadınlar da onu daşlayaraq Taifdən qovdular. Onların atdıqları daşlar Peyğəmbərin ﷺ ayaqlarına dəydi, onun topuqlarını yaraladı, ayaqlarından qan axa-axa Taifdən çıxdı. Nəhayət, Qərnis-Səalibə deyilən

yerə gəlib çatdıqda, Peyğəmbər ﷺ dincini almaq üçün bir ağacın kölgəsinə çəkilir.

Peyğəmbər ﷺ başına gələnlər barədə belə xəbər verir: "Həmin vaxt mən başımı yuxarı qaldırdım və Cəbraili عليه السلام gördüm. O, məni səsləyib dedi: "Allah sənin həmqəbilələrinin nə dediklərini, sənə nə etdiklərini, sənə necə rədd cavabı verdiklərini eşitdi. Rəbbin dağlar mələyini sənin yanına göndərib ki, onları bəlaya düçar etmək və onlardan intiqam almaq üçün istədiyini bu mələyə əmr edəsən." Dağlar mələyi mənə salam verdikdən sonra dedi: "Ey Muhəmməd, nə istəyirsənsə, buyur! İstəyirsən, bu iki dağı onların başına uçurdum!" Aləmlərə rəhmət olaraq göndərilmiş Peyğəmbərin ﷺ cavabı isə belə oldu: "Yox, istəmirəm. Onlar cahil insanlardır. Mən ancaq onu istəyirəm ki, Allah onların belindən Tək Allaha ibadət edən və Ona heç bir şeyi şərik qoşmayan kimsələr gətirsin!"[1]

[1] Səhih əl-Buxari, 3231.

Subhanəllah! Taiflilər onun peyğəmbərliyini inkar etdilər, özünü də təhqir etdilər və daşa basıb qovdular, o isə, onlara rəhm etdi, onlardan intiqam almadı, əksinə, onların haqq yola gəlməsini təmənna etdi. Halbuki istəsəydi, onların kökü kəsilərdi. Məhz Peyğəmbərin ﷺ istəyi sayəsində Allah onların belindən Tək Allaha ibadət edən və Ona heç bir şeyi şərik qoşmayan kimsələr gətirdi. Bu da mərhəmət göstərməyin necə gözəl bir əməl olmasına açıq aydın dəlildir. Burada onu da qeyd etməliyik ki, zülmə məruz qalmış insan – yəni məzlum, ona zülm edən zalıma bəd dua edə bilər. Bu əməl insana yasaq edilməyib.

# Zülmə uğramış kimsənin öz haqqını Allahdan istəməsi

Uca Allah zülmə məruz qalmış bəndəsinin ona zülm etmiş zalıma bəddua etməsinə izin verir. Bu xüsusda Uca Allah ən-Nisa surəsinin 148-ci ayəsində belə buyurur: **“Allah pis sözün ucadan deyilməsini sevməz. Yalnız zülmə məruz qalmış kimsələr müstəsnadır.”**

Bu ayəni izah edən təfsir alimləri burada “pis söz” deyildikdə, bəddua qəsd edildiyini və bunu haqsız yerə etməyin pis əməl olduğunu vurğulamışlar. Ayədəki **“Yalnız zülmə məruz qalmış kimsələr müstəsnadır”** sözündən məzlumun bəddua etməsinin icazəli olması və bu əməlin onun üçün pis əməl sayılmaması açıq-aydın başa düşülür. Buna dəlil olaraq Nuh peyğəmbəri عليه السلام misal çəkmək olar. Belə ki, o, öz qövmü tərəfindən

zülmə məruz qaldıqda, belə dua etmişdir: **"Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma! Əgər Sən onları** ***sağ*** **qoysan, onlar** ***Sənin*** **qullarını azdıracaq və yalnız günahkar, kafir** ***övladlar*** **doğub-törədəcəklər. Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və** ***bütün*** **mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır."**[1] **"Ey Rəbbim! Qövmüm məni yalançı hesab etdi. Mənimlə onların arasında qəti hökm ver, məni və mənimlə birlikdə olan möminləri** ***əzabdan*** **qurtar!"**[2]

Allah da onun duasını qəbul etdi: **"Biz onu və onunla birlikdə olanları yüklü gəmidə xilas etdik. Yerdə qalanları isə suya qərq etdik."**[3]

---

[1] "Nuh" surəsi, 26-28.

[2] "əş-Şuəra" surəsi, 117-118.

[3] "əş-Şuəra" surəsi, 119-120.

Muhəmməd Peyğəmbərə ﷺ də Məkkə müşrikləri 13 il ərzində çox zülmlər etmişdilər. Nəhayət, bir gün Peyğəmbər ﷺ Kəbənin yanında namaz qılarkən, Əbu Cəhl və onun dostlarının təşəbbüsü ilə aralarından birisi ölmüş dişi dəvənin döl qişasını[1] gətirib Muhəmməd peyğəmbər ﷺ səcdə edərkən onun belinə qoydu. Həmin vaxt onlar bir-birlərinə işarə edərək gülməyə başladılar. Allahın elçisi ﷺ isə səcdədən başını qaldırmırdı. Nəhayət, Fatimə ﵂ onun yanına gəldi və qişanı belindən götürüb kənara atdı. Peyğəmbər ﷺ başını qaldırdı və namazı bitirdikdən sonra üç dəfə: “Allahım, Qureyşin cəzasını ver!”– dedi. Peyğəmbərin ﷺ bəddua etməsi onlara pis təsir etdi. Çünki onlar bu şəhərdə edilən bədduanın qəbul olunacağına inanırdılar. Sonra Peyğəmbər ﷺ adbaad sayaraq: “Allahım, Əbu Cəhlin cəzasını ver!

[1] Heyvanın qarnındakı rüşeymin üstünü örtən pərdə.

Utbə ibn Rəbiyənin, Şeybə ibn Rəbiyənin, Vəlid ibn Utbənin, Umeyyə ibn Xələfin və Uqbə ibn Əbu Muitin cəzasını ver!"– dedi."

Hədisi rəvayət edən səhabə Abdullah ibn Məsud رضي الله عنه deyir ki: "Canım Əlində olan Allaha and olsun ki, Rəsulullahın ﷺ adlarını çəkdiyi müşriklərin leşlərini Bədrdə [1] yerə sərilmiş gördüm."[2]

---

[1] Mədinə şəhərindən 150 km cənubda yerləşən bir yerdir. İslam tarixində müsəlmanlarla kafirlər arasında ilk irimiqyaslı döyüşün baş verdiyi yerdir.

[2] Səhih əl-Buxari, 240.

## Sonradan həyatı dəyişmiş insan

Möhtərəm oxucu! Məlumun olsun ki, haqq yola yönəlmək və Allahın hidayətinə qovuşmaq böyük nemətdir. Allah dilədiyi kimsələrə hidayət verir və tarix boyu uca Allahın dilədiyi kimsələrə hidayət verdiyinə dair çoxlu misallar göstərə bilərik.

Allah kimisinə Öz dəlillərindən göstərməklə, kimisinə həyatda bir dərs verməklə, kimisini sıxıntıdan qurtarmaqla, kimisini də, əksinə, sıxıntıya salmaqla – başına bir müsibət gətirməklə, yaxud bir xəstəliyə düçar etməklə hidayət verir. Kimisi bir Quran ayəsi ilə, kimisi dostunun dəvəti ilə, kimisi təsirli bir xütbə və möizə dinləməklə, hətta bir gözəl təsirli sözlə, kimisi cümə namazında müsəlman camaatının birliyini görməklə, kimisi günahkar bir dostunun tamamilə islah olunduğuna şahid olmaqla, kimisi elə körpə

vaxtından İslam ailəsində böyüməklə və başqa bu kimi səbəblər sayəsində haqq yola yönəlir. İndi gəlin, Allahın hidayət verdiyi insanlardan bir neçəsini misal çəkək:

Məşhur İslam alimi Fudeyl ibn İyad ﷺ cahil ikən quldurluq edib yol kəsirmiş. Tövbə edib, haqq yola gəlməyinin səbəbi isə, vurulduğu qadını görmək üçün onun evinin hasarına çıxarkən qonşusunun oxuduğu Quran ayəsi olmuşdur. **"Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan ayələr üçün yumşalması, daha öncə özlərinə Kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxusu da fasiq olmuş kimsələr kimi olmaması vaxtı gəlib çatmadımı?"**[1] Fudeyl bu ayəni eşitdikdə öz-özünə: "Gecənin bu aləmində mən günah iş görməyə gedirəm, bu adam isə Quran oxuyur. Bəli, artıq vaxtı çatıb, ey Rəbbim"– deyib

---

[1] "əl-Hədid" surəsi, 16.

günah etməkdən vaz keçir və geri qayıdır. Yolda bir çadır görür və çadırdakılardan izin alıb ora daxil olur. Həmin çadırda müsafirlər var idi. Onlardan bəzisi: "Gəlin tərpənək ki, səhərə qədər gedib mənzil başına çata bilək"– deyir. Bəziləri isə: "Gecə vaxtı yola çıxmaq təhlükəlidir, Fudeyl bizim yolumuzu kəsib var-yoxumuzu əlimizdən ala bilər"– deyə iradlarını bildirirlər. Onda, Fudeyl öz-özünə: "Allahım, mən etdiyim günahlara görə Səndən bağışlama diləyir və Sənə tövbə edirəm!"– deyir və keçmiş əməllərinə birdəfəlik son qoyur.[1]

Qüdsi hədisdə Uca Allah buyurur: **"Ey qullarım! Mən hidayət verdiyim kimsələrdən başqa hamınız zəlalətdəsiniz. Elə isə, Məndən hidayət diləyin, sizə hidayət bəxş edim."**[2]

---

[1] Siyər Əlam ən-Nubələ, 8/423.
[2] Səhih Muslim, 2577.

Biz də dua edib deyirik:

*Allahım! Hidayət verdiyin kimsələr arasında bizə də hidayət ver! Salamatlıq bəxş etdiyin kimsələr arasında bizə də salamatlıq bəxş et! Dost qəbul etdiyin kimsələr arasında bizi də Özünə dost qəbul et! Bizə verdiklərini bərəkətli et! Qərar verdiyin şeylərin şərindən bizi qoru! Hər şeyə Sən qərar verirsən, Sənin üçün isə qərar verilməz. Dost qəbul etdiyin kimsə zəlil olmaz. Düşmənçilik etdiyin kəs isə qüdrətli olmaz. Ey Rəbbimiz! Sən xeyirxahsan və ucasan!*

*Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən!*

# Yaramaz əməllərin anası

İnsanın öz nəfsinə və ya şeytana uyaraq, yaramaz əməllər etməsi mümkündür. Lakin bu yaramaz əməllər arasında elə bir əməl vardır ki, məhz o, digər pis əməllərə qapı açır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Şərab içmək murdar əməllərin anası, həm də böyük günahlardan biridir..."[1]

Başqa bir hədisdə də o ﷺ, belə demişdir: "Şərab içmək murdar əməllərin anasıdır. Allah onu içən kimsənin qırx gün ərzində qıldığı namazını qəbul etməz və əgər o, içkili halda ölərsə, cahil kimi ölmüş sayılar."[2]

---

[1] Təbərani, Mocəm əl-Kəbir, 11372; Sunən əd-Daraqutni, 4671; Silsilə əl-Əhadis əs-Səhihə, 1853; Səhih əl-Cami, 3345.

[2] Təbərani, Mocəm əl-Əvsat, 3810; Silsilə əl-Əhadis əs-Səhihə,1854.

Digər bir hədisdə o ﷺ demişdir: “Şərab içən adam bütə ibadət edən kimsəyə bənzəyir...”[1]

Yenə bir hədisdə o ﷺ demişdir: “Allah sərxoşedici içkiyə, onu düzəldənə və düzəltdirənə, onu içənə, onu daşıyana və daşıtdırana, onu satana və alana, onu süzənə və süzdürənə lənət eləsin!”[2]

Lənət, Allahın mərhəmətindən birdəfəlik məhrum olmaq deməkdir. Allahın mərhəməti isə Cənnətə daxil olmaq üçün yeganə səbəbdir. Bu xüsusda Rəsulullah ﷺ demişdir: “Heç birinizi, əməli Cənnətə daxil edib, Cəhənnəm odundan qoruya bilməz. Yalnız Allahın rəhməti sayəsində *buna nail olmqa olar.*”[3]

---

[1] Musnəd əl-Bəzzar, 2382; Səhih əl-Cami, 3701.

[2] Musnəd İmam Əhməd, 1/316; Mustədrək, 4/145; Silsilə əl-Əhadis əs-Səhihə, 839.

[3] Səhih Muslim, 2817.

Digər hədisdə o ﷺ demişdir: “Sizlərdən heç kəsin əməli onu *əzabdan* xilas etməyəcək.” *Səhabələr* dedilər: “Səni də, ya Rəsulullah?” Dedi: “*Bəli,* məni də. Yalnız Allahın mənə mərhəmət göstərməsi istisnadır...”[1]

Bu iki hədisdən bizə aydın olur ki, Cənnəti qazanmağın və Cəhənnəmdən qurtulmağın yolu yalnız Allahın mərhəməti və lütfüdür.

Sual verilə bilər ki, nə üçün şirk, küfr, zina etmək, qumar oynamaq, oğurluq etmək və başqa bu kimi böyük günahlar yox, məhz, şərab içmək “murdar əməllərin anası” sayılır? Çünki insanın ağlı başında olduqca, düşünüb, o böyük günahlardan çəkinə bilər. Sərxoş olduqda isə, bu günahları edə bilər. Bu xüsusda, varid olmuş ibrətamiz rəvayətdə Osman ibn Əffan رضي الله عنه demişdir: “Şərabdan uzaq durun, çünki şərab içmək murdar

[1] Səhih əl-Buxari, 6463; Səhih Muslim, 2816.

əməllərin anası sayılır. Bir zaman pozğun bir qadın öz kənizini könlünə yatan bir kişinin yanına göndərir ki, gəlib onlara yardım etsin. Kişi kənizlə birgə o qadının yanına gəlir. Nəhayət, o, evə daxil olduqdan sonra kəniz bütün qapıları kilidləyir. Həmin qadının yanında bir uşaq və bir badya şərab olur. Qadın ona: "Səni bura yardım etmək üçün çağırmamışam. Çağırmışam ki, mənimlə yaxınlıq edəsən və ya bu şərabdan içəsən, ya da bu uşağı öldürəsən. Dediyimi eləməsən, hay-küy salıb səni biabır edərəm. Kişi ona: "Bu şərabdan mənim üçün bir bardaq süz"– dedi. Qadın ona bir bardaq şərab süzdü. Kişi onu içdikdən sonra: "Yenə süz"– dedi. Kişi şərabdan o qədər içdi ki, axırda həm o qadınla zina etdi, həm də həmin uşağı öldürdü. Odur ki, şərabdan uzaq olun!"[1]

[1] Sunən ən-Nəsai, 5666.

Bir xristian tədqiqatçı təəssüf hissi ilə bir əhvalat danışır. Bu əhvalatda hər bir insan üçün ibrət dərsi vardır. Deyir ki, təhsilini qırmızı diplomla başa çatdırmış yüzə yaxın əlaçı tələbə universiteti qurtardıqda, buraxılış gecəsi keçirir və bu əyləncə gecəsində şərab içirlər. Hamısı sərxoş olduqdan sonra aralarına dava düşür və bir qismi digərlərini bıçaqlayıb öldürür. Ölənlər torpağın altına, sağ qalanları isə ömürlük həbsxanaya düşürlər. Diqqət edin – 11 il məktəb, sonra da 5 il universitet oxumaq, özü də yaxşı qiymətlərlə – yəni 16 il gecə-gündüz əziyyət çəkib oxumaq, sonra da, bir gecədə bu əziyyətləri puç etmək. Ümumiyyətlə, yer üzündə baş verən cinayətləri araşdırsaq görərik ki, bunların əksəriyyəti, məhz bu, murdar əməllərin anası üzündən baş verir.

Lakin xüsusilə qeyd edək ki, bu yaramaz əməlin aludəçisi olmuş insanlara mütəmadi olaraq nəsihət etmək lazımdır. İbrətamiz bir

rəvayətdə xəbər verilir ki, Şam əhlindən olan əməlisaleh mömin bir adam tez-tez xəlifə Ömər ibn Xəttabın ﵁ məclisinə gələrdi. Bir müddət sonra Ömər onun məclisdə iştirak etmədiyini görüb: "Filankəsin oğlu filankəs gözə dəymir?"– deyə soruşdu. Məclisdəkilər ona: "Ey möminlərin əmiri, o, şərab içənlərə qoşulub"– dedilər. Onda, Ömər ibn Xattab ﵁ öz katibini çağırtdırıb, ona belə bir məktub yazdırır: "Ömər ibn Xattabdan filankəsin oğlu filankəsə. Sənə salam olsun! Bil ki, mən səninlə birlikdə bizə hidayət verən Allaha həmd edirəm. O Allah ki, Özündən başqa ibadətə layiq olan bir məbud yoxdur. O, günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan, lütf sahibidir! Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Dönüş də Onadır." Sonra Ömər məclisdəkilərə dedi: "Qardaşınız üçün dua edin ki, onun qəlbi doğru yola yönəlsin və Allah onun tövbəsini qəbul etsin." Nəhayət, Ömərin ﵁

məktubu həmin adama yetişdikdə, o, bu məktubu oxuyub təkrar-təkrar dedi: "Allah günahları bağışlayan, tövbələri qəbul edən və cəzası şiddətli olandır! O, həm Öz əzabı ilə məni qorxudur, həm də günahımı bağışlayacağını mənə vəd edir. O, bu sözləri öz-özünə o qədər təkrar etdi ki, axırda ağlamağa başladı və etdiyi günahdan birdəfəlik əl çəkdi. Bu xəbər Ömərə ﷺ gəlib çatdıqda, o dedi: "Həmişə belə edin! Qardaşınızın xətaya yol verdiyini gördüyünüz zaman onu islah etməyə çalışın, onu düz yola yönəldin, üstəlik, Allaha dua edin ki, onun tövbəsini qəbul etsin. Qardaşınıza qarşı çıxıb, şeytanın köməkçiləri olmayın!"[1]

[1] Təfsir ət-Təbəri, 24/27; Təfsir əl-Quran əl-Azim 7/128; Hilyətul-Ovliya, 4/97.

## Qəzəblənmə!

Diqqət etsək görərik ki, bir çox cinayətlər insanın qəzəbləndiyi an baş verir. Yəni bir çox arzuolunmaz sonluqların ortaya çıxmasına səbəb qəzəblənmənin idarəolunmaz hala gəlməsidir.

Rəvayət edilir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mənə nəsihət et!" Peyğəmbər ﷺ buyurdu: "Qəzəblənmə!" Adam bunu bir neçə dəfə təkrar etdi. Peyğəmbər ﷺ ona təkrar-təkrar: "Qəzəblənmə!"– deyə buyurdu."[1]

Hədisdə "qəzəblənmə" deyildikdə, qəzəblənməyə səbəb olan əməllərdən çəkinmək və qəzəb oyadan amillərdən uzaq durmaq qəsd edilir. Qaldı ki, qəzəbin özünə, İslam şəriəti onu qadağan etmir, çünki qəzəblənmək, insan təbiətinə xas olan xislətlərdəndir... Peyğəmbərin ﷺ: "Qəzəblənmə!" sözü həm dünyada, həm də axirətdə olan xeyirlərin hamısını cəm

[1] Səhih əl-Buxari, 6116.

edir. Belə ki, qəzəb adamın başqaları ilə olan münasibətini korlayır və onu mülayim olmaqdan məhrum edir. Bəzən də onu qəzəbləndiyi adama əziyyət verməyə təhrik edir və bununla da öz müsəlman əxlaqına xələl gətirir."[1]

Əgər diqqət etmisinizsə, adam qəzəbləndikdə özünü idarə edə bilmir, çox vaxt dili topuq vurur, əlləri və ayaqları əsir, gözləri az qalır hədəqəsindən çıxsın və başqa bu kimi artıq hərəkətlərə yol verir, sonra da elədiyinə peşman olur. Bəzi alimlər qəzəb hissini belə vəsf etmişlər: "Bu, əvvəli dəlilik, axırı isə peşmançılıq gətirən bir hisdir."

Həqiqətən də, adam qəzəbləndikdə sanki ağlı başından çıxır və nə danışdığını, nə etdiyini bilmir. Qəzəblənmək insanı pis işlər görməyə təhrik edir. Hər nə qədər çətin olsa da, qəzəbi boğmaq böyük nəailiyyətdir və bu, mömin adamı Cənnətə aparan, bəyənilən əməllərdəndir. Bu xüsusda, rəvayət edilmiş

[1] Fəth əl-Bari, 10/520.

hədisdə xəbər verilir ki, Əbu Dərda ﵁ demişdir: "Mən Peyğəmbərə ﷺ: "Ey Allahın elçisi, mənə elə bir əməl öyrət ki, o, məni Cənnətə daxil etsin!"– dedim. Peyğəmbər ﷺ buyurdu: "Qəzəblənmə, Cənnətə girəcəksən."[1]

Peyğəmbərin ﷺ bu sözü açıq-aydın dəlildir ki, qəzəbi boğmaq, Cənnətə aparan amillərdəndir. Bu xüsusda "Ali-İmran" surəsinin 133-cü, 134-cü və 135-ci ayələrində belə buyurulur: **"Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. O müttəqilər ki, bolluqda da, qıtlıqda da,** ***mallarından Allah yolunda*** **xərcləyər, qəzəblərini boğar və insanları bağışlayarlar. Allah yaxşı iş görənləri sevir. O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər."**

---

[1] Təbərani, Mocəm əl-Ovsat, 2374; Səhih ət-Tərğib vət-Tərhib, 2749.

Həmçinin, hədislərin birində rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: “Hamını yıxmaq güclü olmaq demək deyil. Güclü o kəsdir ki, qəzəbləndikdə, özünü ələ ala bilsin.”[1]

Zikr etdiyimiz ayələr və bu hədis qəzəbini boğmağı bacaran mömini tərif edir.

Yaxşı, bəs, nə edək ki, biz də o müttəqilər kimi qəzəbimizi boğmağa qadir olaq? Bunun üçün Peyğəmbərin ﷺ bu xüsusda ümmətinə etdiyi nəsihətlərinə əməl etmək lazımdır. Peyğəmbər ﷺ bizə, qəzəbləndikdə nəfsimizi cilovlamağın yollarını öyrətmişdir. Hədislərin birində o, belə buyurmuşdur: “Qoy, sizlərdən biri qəzəbləndiyi zaman sussun!”[2]

O ﷺ, həmçinin, demişdir: “Qoy, sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın.”[3]

Həmçinin, qəzəbləndikdə, şeytandan Allaha sığınmaq da qəzəbi soyudan amillərdəndir.

---

[1] Səhih əl-Buxari, 6114.
[2] Musnəd İmam Əhməd, 1/239.
[3] Səhih əl-Cami, 694.

Hədislərin birində rəvayət edilir ki, bir gün iki nəfər Peyğəmbərin ﷺ yanında söyüşməyə başladı. Onlardan biri bərk qəzəbləndi. Onun qəzəbi o qədər artdı ki, axırda onun sifəti dəyişdi. Peyğəmbər ﷺ dedi: "Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər!" *Sonra buyurdu:* "Əuzu billəhi minəş-şeytanir-racim!"[1]

Bu hədislərdən bizə aydın olur ki, mömin adam qəzəbini soyutmaq üçün "Əuzu billəhi minəş-şeytanir-racim!" deməli, sonra susmalı və onu qəzəbləndirən səbəbdən uzaq durmalıdır.

Qeyd edək ki, qəzəb insanın küfr söz danışmasına və beləliklə də, cəhənnəmlik olmasına səbəb ola bilər. Necə ki, qadınlar barədə varid olmuş məşhur hədisdə xəbər verilir.

Rəvayət edilir ki, bayram günü Peyğəmbər ﷺ qadınların yanından keçərkən belə dedi: "Ey qadınlar, sədəqə verin və Allahdan

---

[1] Səhih əl-Buxari, 6048.

çoxlu-çoxlu bağışlanma diləyin! Çünki mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm." Qadınlardan biri soruşdu: "Nəyə görə Cəhənnəm əhlinin əksəriyyəti qadınlar olacaq, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Çünki siz qadınlar insanları tez-tez lənətləyir və ərlərinizə qarşı nankorluq edirsiniz. Biriniz ərinə qəzəbləndikdə, onun barəsində: "Vallahi ki, mən heç vaxt ondan xeyir görməmişəm"– deyir." Bu, Allahın nemətlərinə küfr etməkdir. Bu da, nankor olmaq deməkdir." [1]

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bütün bu yuxarıda qeyd etdiklərimiz Peyğəmbərin ﷺ qadağan etdiyi qəzəbə aiddir.

Lakin bundan başqa qəzəblənməyin müstəhəb, hətta vacib olan növü də vardır ki, bu da Allah rizası üçün qəzəblənməkdir. Məsələn, Allahın dininə istehza edildikdə, yaxud Peyğəmbər ﷺ təhqir edildikdə, dini ayinlər lağa

---

[1] Səhih əl-Buxari, 1052; Səhih Muslim, 241.

qoyulduqda və s. bu kimi hallarda qəzəblənmək vacibdir.

Qəzəb xüsusunda Ömər ibn Abduləziz رحمه الله demişdir: “Hər kim özünü üç şeydən qorusa, nicat tapar: nəfsin istəyinə uymaq, qəzəblənmək və bir də tamahkar olmaq.”[1]

Həsən əl-Bəsri رحمه الله demişdir: “Kim bu dörd xisləti özündə cəm etsə, Allah onu şeytandan qoruyar və Cəhənnəmi ona haram edər: istək, qorxu, şəhvət və qəzəb anlarında özünü ələ almaq.”[2]

Cəfər ibn Muhəmməd رحمه الله demişdir: “Qəzəblənmək, hər bir şər qapısının açarıdır.”[3]

Abdullah ibn əl-Mübarəkə رحمه الله: “Gözəl əxlaqın nə olduğunu bir kəlmə ilə bizə başa sal”– deyildikdə, o, belə cavab verərmiş: “Qəzəblənməmək!”[4]

---

[1] əl-Hilyə, 5/290.

[2] əl-Hilyə, 5/144.

[3] Şərh ən-Nəvəvi, 67-ci hədisin şərhi və Cami əl-Ulum vəl-Hikəm, 12-ci hədisin şərhi.

[4] Əvvəlki mənbə.

# Sıxıntı anında ediləcək dualar

((حَسْبِيَ الله وَنِعْمَ الْوَكِيل))

"Allah mənə yetər. O, nə gözəl qoruyandır!"[1]

((إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ، اللَّهُمَّ أْجُرْنِى فِى مُصِيبَتِى وَأَخْلِفْ لِى خَيْرًا مِنْهَا))

"Biz, Allaha məxsusuq və Onun hüzuruna qayıdacağıq! Allahım, başıma gəlmiş bu müsibətə görə mənə savab yaz və mənə bundan xeyirlisini nəsib et!"[2]

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ السَّمَاوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ))

---

[1] Səhih əl-Buxari, 4563.

[2] Səhih Muslim, 2/632.

"Əzəmətli və Həlim Allahdan başqa *haqq* məbud yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa *haqq* məbud yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və kəramətli Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq haqq* məbud yoxdur!"[1]

((اللَّهُ اللَّهُ رَبِّي لاَ أُشْرِكُ بِهِ شَيْئاً))

"Rəbbim Allahdır, Allah! Və mən heç bir şeyi ona şərik qoşmuram!"[2]

((اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو، فَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ، وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ))

"Allahım, Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur!"[3]

---

[1] Səhih əl-Buxari, 7/154; Səhih Muslim, 4/2092.

[2] Sunən Əbu Davud, 2/87; Səhih ibn Macə, 2/335.

[3] Sunən Əbu Davud, 4/324; Səhih Əbu Davud, 3/959.

((لاَ إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ))

“Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam!”[1]

((اللَّهُمَّ إِنِّي عَبْدُكَ، ابْنُ عَبْدِكَ، ابْنُ أَمَتِكَ، نَاصِيَتِي بِيَدِكَ، مَاضٍ فِيَّ حُكْمُكَ، عَدْلٌ فِيَّ قَضَاؤُكَ، أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ، سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قَلْبِي، وَنُورَ صَدْرِي، وَجَلاَءَ حُزْنِي، وَذَهَابَ هَمِّي))

“Allahım, mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Məni idarə etmək Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir.

[1] Sunən ət-Tirmizi, 5/529; Səhih ət-Tirmizi, 3/168.

Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarıram ki, Quranı qəlbimin baharı və köksümün nuru, üzüntümün aradan qalxması və  kədərimin getməsi üçün səbəb et!”[1]

((الحَمْدُ لِلّهِ عَلَى كُلِّ حَال))

“Hər bir hala görə Allaha həmd olsun)!” [2]

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الرِّضَا بَعَدَ الْقَضَاءِ))

“Allahım, Səndən, başıma gələn qəzavüqədərdən sonra ondan razı qalmağımı diləyirəm.”[3]

---

[1] Musnəd imam Əhməd, 3712;Silsilə əl-Əhadis əs-Səhihə, 199.

[2] Hakim, əl-Mustədrək 1/499; Səhihul-Cami, 4/201.

[3] Sunən ən-Nəsai, 4/54-55; Musnəd İmam Əhməd, 4/364; Səhih ən-Nəsai, 1/281.

((رَبِّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَامْكُرْ لِي وَلاَ تَمْكُرْ عَلَيَّ، وَاهْدِنِي وَيَسِّرِ الْهُدَى إِلَيَّ، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ، رَبِّ اجْعَلْنِي لَكَ شَكَّارًا، لَكَ ذَكَّارًا، لَكَ رَهَّابًا، لَكَ مِطْوَاعًا، لَكَ مُخْبِتًا، إِلَيْكَ أَوَّاهًا، مُنِيبًا، رَبِّ تَقَبَّلْ تَوْبَتِي، وَاغْسِلْ حَوْبَتِي، وَأَجِبْ دَعْوَتِي، وَثَبِّتْ حُجَّتِي، وَاهْدِ قَلْبِي، وَسَدِّدْ لِسَانِي، وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي))

“Ey Rəbbim, mənə kömək et, əleyhimə olan işlərdə heç kəsə kömək etmə. Mənə qələbə bəxş et, heç kəsə mənim üzərimdə qələbə qazandırma. Mənə düşmənlərimə hiylə qurmağa kömək ol, başqasının mənə hiylə qurmasına yol vermə. Mənə hidayət ver və mənim üçün doğru yola yönəlməyi asanlaşdır. Mənə təcavüz edənə qalib gəlməyimə yardım et. Ey Rəbbim, məni yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız

Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bir bəndə et. Ey Rəbbim, mənim tövbəmi qəbul et, günahlarımı yu, duamı qəbul et, dəlilimi möhkəmləndir, qəlbimi haqqa yönəlt, dilimi doğruluğa öyrət və qəlbimin qara ləkəsini yox et!”[1]

[1] Sunən ət-Tirmizi, 3551; Musnəd İmam Əhməd, 1/227; Səhih əl-Ədəb əl-Mufrad, 517.